**Təhsildə Keyfiyyət Təminatı Agentliyi**

**Bakı şəhəri** "07" 01 2021-ci il

# ƏMR № F-02

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dövlət akkreditasiyası haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26 aprel 2011-ci il tarixli 656 nömrəli əmri ilə təsdiq edilmiş "Təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar" əsasında 2019/2020-ci tədris ilində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin akkreditasiya qiymətləndirilməsi keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dövlət akkreditasiyası barədə Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 14 dekabr 2020-ci il tarixli AKŞQ-01 nömrəli qərarını nəzərə alaraq,

**əmr edirəm:**

1. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 2020/2021-ci tədris ilindən başlamaqla 5 (beş) il müddətinə akkreditasiyadan keçmiş hesab olunsun və tipi ali təhsil müəssisəsi, növü isə universitet kimi müəyyən əşdirilsin.
2. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təhsil proqramları (əlavə olunur) yuxarıda göstərilən müddət üzrə mütəxəssis hazırlığını həyata keçirmək məqsədi ilə akkreditasiyadan keçmiş hesab olunsun

3. Aşağıda adları qeyd olunan təhsil proqramlarının 2021-ci ildə təkrar akkreditasiyası keçirilsin:

   **Bakalavriat səviyyəsi üzrə:**

   050318 Rəngkarlıq (Kino və televiziya rəssamı)

   **Magistratura səviyyəsi üzrə:**

   060318 Rəngkarlıq (Kino və televiziya rəngkarlığı)

4. Bu əmrin 3-cü bəndində göstərilmiş Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin akkreditasiyadan keçməyən təhsil proqramlarına (ixtisas və ixtisaslaşmalar) təkrar akkreditasiyadan keçmədiyi halda növbəti tədris ili üçün qəbul aparılmasın.
5. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Akkreditasiya Komissiyasının Yekun Hesabatında verilmiş tövsiyələrlə əlaqədar növbəti akkreditasiya qiymətləndirilməsinədək hər tədris ili ərzində görüləcək işlərə dair fəaliyyət planını 3 (üç) ay müddətində təsdiq edərək Agentliyə təqdim etsin.
6. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti təsdiq olunmuş fəaliyyət planına əsasən növbəti akkreditasiya qiymətləndirilməsinədək müvafiq tədris ili ərzində görülmüş işlərə dair hesabatı hər tədris ilinin sonu Agentliyə təqdim etsin.
7. Keyfiyyət təminatı departamenti (L.Abasova) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin akkreditasiya olunmasına dair sertifikatının hazırlanaraq reyestrə daxil edilməsini və sertifikatın verilməsini təmin etsin.
8. İnformasiya şöbəsi (N.İlyasov) bu əmrin surətinin Nazirliyin müvafiq struktur bölmələrinə və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə çatdırılmasını və müvafiq məlumatın Agentliyin internet resurslarında dərc edilməsini təmin etsin.
9. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

***Əsas:*** *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 14 dekabr 2020-ci il tarixli, AKŞQ-01 nömrəli qərarı.*

**İdarə Heyətinin sədri** **Eldar Orucov**

**Əlavə 1**

**Təhsildə Keyfiyyət Təminatı Agentliyinin**
**07.01 2021-ci il tarixli, F-02 nömrəli əmrinə**

**əlavə**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ali təhsil müəssisəsi kimi 2020-2025-ci illər üçün akkreditasiya olunmuş təhsil proqramlarının siyahısı**

**Bakalavriat səviyyəsi üzrə:**

050315 Rejissorluq(Kino rejissoru)

050315 Rejissorluq(Televiziya rejissoru)

050317 Operator sənəti

050316 Kinoşünaslıq

050314 Bədii yaradıcılıq və ekran dramaturgiyası

050215 Kitabxanaçılıq və informasiya

050205 Kitabşünaslıq

050210 Sosiologiya

050813 Sosial iş

050301 Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması

050307 Musiqişünaslıq

050109 Musiqi müəllimliyi

050303 İnstrumental ifaçılıq

050310 Xalq çalğı alətləri ifaçılığı

050309 Estrada sənəti

050304 Solo oxuma

050310 Aşıq sənəti

050311 Aktyor sənəti (Dram teatrı və kino aktyoru)

050311 Aktyor sənəti (Musiqili teatr aktyoru)

050315 Rejissor sənəti (Teatr rejissorluğu)

050313 Teatrşünaslıq

050302 Sənətşünaslıq

050321 Dizayn (Qrafik dizayn)

050321 Dizayn (Geyim dizaynı)

050321 Dizayn (İnteryer üzrə dizayner)

050312 Dekorativ sənət (Bədii xalça)

050312 Dekorativ sənət (Bədii toxuculuq)

050117 Təsviri incəsənət müəllimliyi

**Magistratura səviyyəsi üzrə:**

060316 Kinoşünaslıq (Kino tənqidi)

060316 Kinoşünaslıq(Kino tarixi və nəzəriyyəsi)

060314 Bədii yaradıcılıq və ekran dramaturgiyası(Ədəbi iş)

060314 Bədii yaradıcılıq və ekran dramaturgiyası(Ssenarist)

060315 Rejissorluq(Kino rejissoru)

060315 Rejissorluq(Televiziya rejissoru)

060317 Operator sənəti

060803 Turizm və otelçilik(Sosial-mədəni sahələrdə xidmətin təşkili)

060803 Turizm və otelçilik(Turizmin bələdçisi)

060302 Sənətşünaslıq (Mədəniyyətin tarixi)

060302 Sənətşünaslıq (Mədəniyyətin nəzəriyyəsi)

060302 Sosial iş(Gənclərlə iş)

060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması (Muzeyşünaslıq)

060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması (Arxiv işi və arxivşünaslıq)

060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması (Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi)

060307 Musiqişünaslıq (Etnomusiqişünaslıq)

060307 Musiqişünaslıq(Musiqi tənqidi)

060303 İnstrumental ifaçılıq(İnstrumental ifaçılığın tarixi, nəzəriyyəsi və metodikası (musiqi alətləri üzrə)

060304 Solo oxuma(Aşıq sənəti)

060309 Estrada sənəti (Populyar musiqi və caz ifaçılığı)

060310 Xalq çalğı alətləri ifaçılığı (musiqi alətləri üzrə)

060303 İnstrumental ifaçılıq (musiqi alətləri üzrə)

060311 Aktyor sənəti (sahələr üzrə)

060313 Teatrşünaslıq (Teatr tənqidi)

060313 Teatrşünaslıq(Teatr tarixi və nəzəriyyəsi)

060302 Sənətşünaslıq (Təsviri incəsənət tarixi və nəzəriyyəsi)

060302 Sənətşünaslıq(İncəsənət əsərlərinin bərpası və ekspertizası)

060321 Dizayn (Qrafik dizayn və reklam işi)

060321 Dizayn (Geyim dizaynı)

060321 Dizayn (İnteryer dizaynı)

060312 Dekorativ sənət (Bədii xalça)

060318 Rəngkarlıq (Dəzgah rəngkarlığı)

**Əlavə 2**

**Təhsildə Keyfiyyət Təminatı Agentliyinin**
**01.01. 2021-ci il tarixli, F-02 nömrəli**
**əmrinə əlavə**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin akkreditasiya qiymətləndirilməsi nəticəsində verilmiş tövsiyələrin həyata keçirilməsinə dair tədbirlər planı**

| Sıra №si | Tədbirin adı | Əsas icraçı (Məsul struktur və məsul şəxs göstərilməklə) | Digər icraçılar (Məsul struktur və məsul şəxs göstərilməklə) | Nəticə indikatoru | İcra müddəti |
|---|---|---|---|---|---|
| 1. | ADMİU-nun yeni Nizamnaməsinin təsdiq edilməsi. | | | | |
| | | | | | |
| 2. | Strateji İnkişaf Planından irəli gələn əsas hədəfləri və onların realizə olunması üçün qısa və ortamüddətli planların işlənilməsi və Strateji İnkişaf Planının icrasına maraqlı tərəflərin (professor-müəllim heyəti, təhsilalanlar və işəgötürənlər) iştirakının təmin olunması və müəssisənin rəsmi internet səhifəsində yerləşdirilməsi. | | | | |
| | | | | | |
| 3. | ADMİU-nin Elmi Şurasının tərkibində tələbələrinin maraqlarının qorunması məqsədilə tələbə nümayəndələrinin sayının artırılması. | | | | |
| | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | Tədrisin təşkili üzrə struktur bölmələrin optimallaşdırılması, nəzarət və qeydiyyat sistemində müvafiq struktur bölmələrin funksiyalarının dəqiqləşdirilməsi və birbaşa Elmi Şuraya hesabatlılığı olan "Keyfiyyət təminatı" strukturunu yaradılması. | | | | |
| | | | | | |
| 5. | Tədris sənədlərinin, xüsusilədə tədris planları, sillabuslar kimi sənədlərin hazırlanmasına sənaye nümayəndələrinin cəlb olunması və onlardan müvafiq rəylərin alınması. | | | | |
| | | | | | |
| 6. | Təhsil proqramlarının müntəzəm olaraq monitorinq və qiymətləndirilməsinin aparılması məqsədi ilə müvafiq maraqlı tərəflərin (o cümlədən tələbələr) bu proseslərə cəlb edilməsi. | | | | |
| | | | | | |
| 7. | Tələbə Elektron bazasının qurulması. | | | | |
| | | | | | |
| 8. | Akademik heyətin təlim ehtiyaclarının müəyyənləşdirilməsi üçün prosedurlar sisteminin işlənib hazırlanması. | | | | |
| | | | | | |
| 9. | Karyera, planlama və inkişaf bölməsinin işinin təkmilləşdirilməsi. | | | | |
| | | | | | |
| 10. | Kitabxana fondunu ixtisaslar üzrə fənlərə dair müasir tədris-informasiya vasitələri ilə zənginləşdirilməsinə diqqətin artırılması, kitabxananın faydalı sahəsinin müvafiq normalara uyğunlaşdırılması. | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| 11. | Tədris prosesində proyektor, televizor, kompyuter, interaktiv lövhələrdən istifadə edilməklə innovativ tədris metodlarından istifadənin təkmilləşdirilməsi. | | | | |
| | | | | | |
| 12. | Təhsilalanların elmi-tədqiqat işlərinə cəlbinin təkmilləşdirilməsi, universitetdaxili müsabiqələrin keçirilməsi və onun nəticələrinə görə stimullaşdırma mexanizminin qurulması. | | | | |
| | | | | | |
| 13. | ADMİU-nin internet xidmətinin və İT təminatının təkmilləşdirilməsi, tələbələrin və professor-müəllim heyətinin İKT avadanlıqlarına çıxış imkanlarının artırılması | | | | |
| | | | | | |
| 14. | DAK sədrlərinin hesabatların təhlilinin nəticələrinin kafedralarda müzakirəsinin təşkili. | | | | |
| | | | | | |
| 15. | Buraxılış işlərinin çəkilişinin aparılması və yaradıcılıq işlərinin universitet filmotekasında tədris vəsaiti kimi saxlanması. | | | | |
| | | | | | |
| 16. | Tədris prosesinə gənc müəllimlərin cəlb edilməsinə diqqətin artırılması. | | | | |
| | | | | | |
| 17. | ADMİU-nin beynəlxalq əməkdaşlığı üzrə siyasət sənədinin hazırlanması | | | | |
| | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 18. | ADMİU-ya əcnəbi tələbələrin daha da çox cəlb edilməsi məqsədi ilə ingilis və rus dillərində tədris edə bilən mütəxəssislərin cəlb edilməsi. | | | | |
| | | | | | |
| 19. | ADMİU-nun məzunlarının müəllim ehtiyatı bazasını yaratmaq və onların işə qəbuluna diqqəti artırmaq, xarici ölkələrdə məskunlaşan məzunları ilə əlaqələrin gücləndirilməsi. | | | | |
| | | | | | |
| 20. | Əməyin stimullaşdırılması və motivasiyası üzrə siyasət sənədinin hazırlanması və Elmi Şuranın müzakirəsinin təşkil olunması. | | | | |
| | | | | | |
| 21. | Kadr potensialın inkişafı və ehtiyat kadr bankının formalaşdırılması üçün büdcədən vəsaitin ayrılması. | | | | |
| | | | | | |
| 22. | Elmi-tədqiqat işlərinin maliyyə mənbələrinin spektrinin artırılması, beynəlxalq və yerli layihələrdə iştirak üçün təcrübənin öyrənilməsi. | | | | |
| | | | | | |
| 23. | Musiqi, rəsm və turizm sənayesi ilə elmi-tədqiqat işlərinin birgə aparılması və nəticələrin sənayedə və tədrisdə tədbiqi istiqamətdə fəaliyyətin artırılması. | | | | |
| | | | | | |
| 24. | Hazırlıq şöbəsində sillabus və dərsliklərin təkmilləşdirilməsi. | | | | |
| | | | | | |
| 25. | Bazar iqtisadiyyatı şəraitini və əməkdaşların maddi vəziyyətinin yaxşılaşdırılmasını nəzərə alaraq ödənişli əsaslarla müxtəlif ixtisas kurslarının formalaşdırılması. | | | | |
| | | | | | |
| 26. | Universitetin mövcud maddi-texnıkı bazası, şəraiti imkanları nəzərə alınaraq ödənişli əsaslarla uyğun ixtisaslar üzrə müəllimlərin ixtisasartırma işlərini həyata keçirmək. | | | | |
| | | | | | |